# İnkişafetdirici təlimin şəxsiyyətin formalaşmasında rolu

**Şərafət Baxışova**
*ADPU-nun dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
**E-mail:** Sharafat_baxishova1960@mail.ru

**Rəyçilər:** ped.ü.f.d., dos. M. İbadova,
ped.ü.f.d., dos. X. Talıbova

**Açar sözlər:** inkişafetdirici təlim, məktəbəqədər dövr, idrak fəaliyyəti, şəxsiyyət, formalar, vasitələr, prinsiplər, keyfiyyətin yüksəldilməsi

**Ключевые слова:** развивающее обучение, дошкольный этап, познавательная деятельность, личность, формы, средства, принципы, повышение качества

**Key words:** developing training, preschool stage, informative activity, the person, form, funds, principles, improving the quality

Hazırda təhsil sisteminin qarşısına qoyulmuş əsas vəzifə təhsilin dünyəvilik, sivillik, ümumbəşəri mövqedən yeniləşdirilməsi və uşaq şəxsiyyətinin formalaşdırılmasıdır. Uşaq şəxsiyyətinin formalaşması üçün təhsildə demokratikləşdirmə və humanistləşdirmə əsas şərtlərdən biridir.

Müasir dövrdə həyatın bütün sahələrində, o cümlədən, təhsildə baş verən dəyişikliklər insanda sosial istiqaməti formalaşdırmaq, baş verən dəyişikliklərə uyğun reaksiya vermək, yeni şəraitdə özünütənzimləmə, özünütəyinetmə, özünütəsdiq kimi xüsusiyyətləri aşkara çıxarmaq üçün vacibdir. Bununla əlaqədar istənilən səciyyəvi tədris müəssisəsi sosial dəyişikliklərdən asılı olmadan sosial inkişafa uyğun müstəqillik və təşəbbüs göstərməyə hazır olan yaradıcı şəxsiyyətə istiqamətlənməlidir.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda birinci strateji istiqamət səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir. Sərəncamın başlıca məqsədi müasir və innovativ təhsil sisteminin təkmilləşdirilməsi üçün geniş imkanlar açmaqla, onun iqtisadi inkişafın mühüm amilinə çevrilməsini təmin etməkdir (1).

Şəxsiyyətin formalaşmasında məktəbəqədər uşaqlıq dövrünün rolu böyükdür. Bu dövrün xüsusiyyətləri inkişafın sonrakı mərhələlərindən fərqlənir. Hər hansı xüsusi bilik, bacarıq, vərdişlərin əldə edilməsi və müxtəlif növ fəaliyyətin mənimsənilməsinin əsası məhz bu dövrdən başlayır və uşağın ümumi inkişafını təmin edir. Prof. Y. Kərimov insanın şəxsiyyət kimi formalaşmasında onun fəallığının mühüm rol oynadığını qeyd edərək şəxsiyyət adlanan mürəkkəb bütövdə üç əsas cəhəti fərqləndirməyin mümkünlüyünü göstərir:

1) Fəallıq idraka, ətraf aləmdəki dəyişikliyə, insanın şəxsi təbiətinin dəyişməsinə, psixi həyat tərzində baş verənlərin korrektəsinə (özünütərbiyəyə) yönəlmiş çoxtərəfli fəaliyyətdə özünü göstərir.

2) Şəxsiyyətin imkanları, onun fəaliyyətinin müvəffəqiyyətlərinin psixoloji şərtlərini (xüsusilə qabiliyyəti) əhatə edir.

3) Şəxsiyyətin davranış üslubu psixoloji xüsusiyyətləri (temperament və xarakter) əhatə edir. Fəallıq ətraf aləmlə qarşılıqlı fəaliyyət prosesində meydana çıxır (3).

Sosial-iqtisadi dəyişikliklər, təhsil sahəsində islahatlar dövründə idrak prosesinin mükəmməl təşkili birinci növbədə inkişafetdirici təlimin həyata keçirilməsini, bu prosesin təhsilin bütün pillələrini əhatə etməsini tələb edir. Getdikcə artan informasiya axını uşaqlara xas olan idrak fəaliyyətini nəzərə alaraq fikri qabiliyyətlərinin inkişafına xüsusi diqqət yetirilməsini ön plana çəkir.

Avstriya alimi K. Büler belə hesab edirdi ki, "Sözün həqiqi mənasında inkişaf dedikdə, əvvəla, təbii imkanları, ikincisi isə onları həyata keçirilməsi istiqaməti, yaxud, məqsədi başa düşülür" (5). Onun fikrincə hər bir fərd öz inkişafında ardıcıl olaraq instinkt, vərdiş və intellekt mərhələlərini keçir. Psixikanın inkişafında daxili ritm, mənəvi yetkinlik təzahür edir. Xarici təsirin rolu ondan ibarətdir ki, həmin daxili ritmi ya sürətləndirir, ya da ləngidə bilir. Bülerin fikrincə, orqanizmdə daxili məqsəd vardır, inkişafın istiqamətini də məhz o təyin edir.

Deyilənlərdən belə qənaətə gəlirik ki, məktəbəqədər təhsil qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün inkişafetdirici təlimin tətbiqinə böyük ehtiyac vardır.

İnkişafetdirici təlimin strukturu uşaqlardan yeni, onların təcrübəsində analoqu olmayan xüsusi bilik və vərdişlərin mənimsənilməsinə tələbat yaradan, tədricən mürəkkəbləşən zəncirvari vəzifələrdən ibarətdir. Birinci plana yalnız əvvəllər mənimsənilmiş biliklərin və fəaliyyət üsullarının aktuallaşdırılması deyil, həm də fərziyyənin irəli sürülməsi, prinsiplərin, ideyaların formalaşdırılması və vəzifələrin həllinin orijinal planının işlənilməsi, axtarılan, məlum olan və məlum olmayan dəlillər arasında əlaqələrin həlli yollarının yeni əlaqələr və asılılıqları nəzərə alaraq müstəqil istifadə edilməsi meydana çıxır. Bilik əldə etmə prosesində uşaq yeni üsulları tətbiq etməklə yeni faktlar kimi konkret nəticə alır. Bununla belə təlim prosesində uşaq intellektual və şəxsi inkişafın yeni pilləsinə qalxır.

Uşaq təlim fəaliyyətinin tam subyektidir. İnkişafetdirici təlim strukturunda öyrənmənin əsasını məqsəd, vasitə və nəzarət təşkil edir, mərkəzi texnoloji əlaqə isə uşağın təlim prosesində məqsədə uyğun olaraq öz fəaliyyətini tənzimləməsi xüsusiyyətlərinə əsaslanan müstəqil təlim-idraki fəaliyyətidir. Əşya və hadisələrin dəyişilməsinə istiqamətlənən bu fəaliyyət uşağın daxili tələbatına (motiv) uyğun olaraq davranışında müəyyən proseslərə təkan verir ki, bu da həm təhrik etmə, həm də məqsəd kimi özünü büruzə verir. Təlimin motivi ya bilavasitə praktik tələbatda, situativ maraqda, ya da suyektiv olaraq uşağın əvvəlcədən bilmədiyi şəraitlə üzləşdiyi zaman ifadə olunur. Biliklərin mənimsənilməsi və fəaliyyət üsullarının formalaşdırılması inkişafetdirici təlim strukturunda uşağın fəaliyyət prosesi və nəticəsi kimi meydana çıxır.

V.A.Suxomlinski yazırdı: "Yaxşı oxumaq həvəsi, arzusu insani həvəsdir-mənə belə gəlir ki, uşaq həyatının bütün mənasına, uşaq sevinci aləminə nur saçan parlaq işıqdır. Uşağın bilik almaq arzusunu bu zəif işığı üçün həyat mənbəyi yalnız iftixarla belə bir fikri dərk etməsi və keçirilməsidir ki, mən qabağa addımlayıram, idrakın sıldırım cığırları ilə qalxıram... Əgər uşaq öz əməyində irəliləyiş, müvəffəqiyyət görmürsə, arzu işığı sönəcəkdir...Uşaq öz gücünə inamı itirəcək, müəllimin məsləhət və iradlarına qaba cavab verəcəkdir" (6).

İnkişafetdirici təlim də şəxsiyyətin bütün keyfiyyətlərinin tam məcmusunun inkişafına istiqamətlənir.

Azərbaycan psixoloqlarından Ə.S.Bayramov müəyyən etmişdir ki, hətta kiçik məktəblilərin təlim fəaliyyətində əlverişli şərait yaradıldıqda onlarda əqlin müstəqilliyi və tənqidliyə meyli lazımi səviyyədə inkişaf edə bilir, oradan müəyyən nəticə çıxarmağa, səhvləri, uyğunsuzluqları tapmağa, onları törədən səbəblər barədə müəyyən mülahizələr söyləməyə qabil olurlar (2). Təlimin optimallaşdırılması üçün birinci növbədə uşaqlarda psixi inkişafın səviyyəsinin yüksəldilməsi üçün şəraitin yaradılması əsas amillərdən biridir.

Uşaqların psixi inkişaf nəzəriyyəsinə müxtəlif yanaşmalar mövcuddur. Görkəmli psixoloq L.S.Vıqotski təlim və tərbiyənin uşağın psixi inkişafında həlledici rolunu göstərmişdir. Onun fikrincə təlim inkişafdan irəlidə gedir və onu öz arxasınca aparır.

İnkişafetdirici təlim konsepsiyasının əsas məğzi həm tərbiyəçi, həm də uşaq üçün inkişafın əsas vəzifəyə çevrilməsi üçün şəraitin yaradılmasıdır. Bu mürəkkəb pedaqoji problem ardıcıl olaraq həll edilir: birinci mərhələdə — uşaqda özünün inkişafa tələbat və qabiliyyətlərin formalaşdırılması, sonrakı illərdə isə bu qabiliyyətlərin gücləndirilməsi və onun maksimal dərəcədə reallaşdırılması üçün şəraitin yaradılması yolu ilə.

Uşaqların idrak fəallığının izlənilməsi, inkişaf səviyyələri və nailiyyətlərinin təhlil edilməsi, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsinin tənzimlənməsi onun inkişafyönlülüyünü meydana çıxarır. Uşaqlar müxtəlif yollar vasitəsilə ilə öyrənir və öyrəndiklərini də müxtəlif yollarla göstərirlər. Ona görə də kiçikyaşlı uşaqlar üçün səmərəli təlim prosesi təşkil olunmalıdır. Səmərəli təlim odur ki, planlaşdırmada və təlim zamanı hər bir uşağın inkişaf səviyyəsi və maraq dairəsi, inkişaf prinsipləri nəzərə alınır, uşaqların yeni məlumatlar əldə etməsi və hərtərəfli inkişafı təmin olunur. Lakin bu proses o zaman səmərəli olar ki, uşağın inkişaf göstəriciləri və tərbiyəçinin hazırlıq səviyyəsi inkişafetdirici təlimi reallaşdırmağa imkan versin.

İnkişafetdirici sistem bilik, bacarıq və vərdişlərin təmin olunması ilə bərabər, yeni biliklərin müstəqil olaraq əldə edilməsi üsullarını da uşaqda formalaşdırır. Yalnız onda bu biliklər uşağın müstəqil idrak fəallığının inkişafının həyata keçirilməsi prosesində qabiliyyətlərin formalaşmasına təsir göstərir. Bu, həmçinin təhsilin məzmununa və prosesinə emosional-dəyərli münasibətin təmin olunmasına və şəxsiyyətin humanist istiqamətdə formalaşmasına şərait yaradır.

İnkişafetdirici təlim yalnız o halda produktiv təfəkkürün inkişafını təmin edir ki, öyrənənin bütün idrak prosesləri aktiv fəaliyyətə cəlb edilsin. İnkişafetdirici təlim yalnız güclü və orta səviyyəli uşaqların deyil, zəiflərin də yaradıcılıq potensialını nəzərə çarpacaq dərəcədə artırır.

İnkişafetdirici təlimin həyata keçirilməsi zamanı aşağıdakı şərtlərin nəzərə alınması məqsədəmüvafiqdir.

1. Öyrənən müvafiq bilik ehtiyatına malik olmalıdır. Bunsuz qoyulan problemləri və yaxud da qarşıya çıxan çətinliklərin həll olunması mümkün deyil. Məlumdur ki, insan ona məlum olmayan sferada problem həll edə bilməz. Bütün idrak prosesləri kimi, yeni problemin də həlli uzunmüddətli hafizənin hifz etdiyi biliklərə əsaslanır.

2. Öyrənənin yeni problemi dərk etmək, problemin həlli üçün zəruri olan faktları, məlumatları təhlil etmək, müqayisə etmək, hipoteza irəli sürüb, onun doğru olub-olmamasını yoxlamaq, nəticə çıxarmaq və mövcud bilikləri yeni situasiyaya tətbiq etmək və diskussiya zamanı öz mövqeyini müdafiə etmək və s. bacarıqlara malik olması vacibdir.

Beləliklə, reproduktiv təfəkkürü inkişaf etdirən ənənəvi təlimdən fərqli olaraq, inkişafetdirici təlim produktiv təfəkkürün inkişafına səbəb olur. İnkişafetdirici təlimin əsas fərqləndirici cəhəti onun yaradıcı xarakter daşımasıdır. İnkişafetdirici təlim öyrənəndən daha çox müstəqillik, öz qüvvə və imkanlarına inam tələb edir.

İnkişafetdirici təlimin müvəffəqiyyətini təmin etmək məqsədilə şəxsiyyətin inkişafının xüsusiyyətlərini və onun qanunauyğunluqlarını nəzərə almaq vacib faktordur.

Formalaşma və inkişaf şəxsiyyətin son dərəcə mühüm xüsusiyyətidir (immanentlik xüsusiyyəti). İmmanentlik — latınca immanentis — nəyinsə daxilində olan, nəyə isə xas olan bu və ya digər xassəni, qanunauyğunluğu bildirən anlayışdır. Bu, aşağıdakı amilləri özündə

ehtiva edir:

— şəxsiyyətin formalaşması və inkişafında irsiyyət amilinin rolunun böyük olması (biogen xüsusiyyət);

— şəxsiyyətin formalaşması və inkişafına sosial mühitin təsiri (sosiogen xüsusiyyət);

— şəxsiyyət özünüidarə edən və özünütənzimləyən mürəkkəb sistemdir.

— şəxsiyyət özünəməxsus xüsusiyyətləri, keyfiyyətləri, təkrarolunmaz fərdi inkişaf variantı olan unikal bir varlıqdır (fərdilik xüsusiyyəti).

— şəxsiyyətin inkişafı ümumi dialektik qanunauyğunluqlar əsasında baş verir (mərhələli inkişaf).

— hər bir şəxsiyyətin özünəməxsus inkişaf tempi var (inkişafın qeyri-bərabər və ziddiyyətli olması).

— psixi inkişafın kəmiyyət və keyfiyyət dəyişmələri fiziki dəyişmələrlə müəyyən edilir (4).

Beləliklə, məlum olur ki, inkişafetdirici təlimi təşkil edərkən, müvəffəqiyyət qazanmaq üçün həm şəxsiyyətin inkişaf qanunauyğunluqları, həm də hər bir fərdin özünəməxsus xüsusiyyətlərini və inkişaf səviyyələrini nəzərə alaraq müvafiq şərait yaratmaqla qabaqlayıcı metod və texnologiyalardan istifadə etmək zəruridir.

Yaxşı təşkil olunmuş ənənəvi təlim, söz yox ki, şəxsiyyətin inkişafı üçün müvafiq şərait yaradır. Lakin tədqiqatlar göstərir ki, ənənəvi təlim şəxsiyyətin intellektual inkişafını və digər psixi proses və keyfiyyətlərinin yüksək inkişaf səviyyəsini təmin edə bilmir. Ənənəvi təlim prosesində öyrənənin yeni kəşflər etməsi vəzifəsi qarşıya qoyulmur, yalnız biliklərin yaradıcılıqla mənimsənilməsi tələb olunur. Bu zaman öyrənən yeni fakt, hadisələri dərk edir. Gerçəkliyin öyrənənin beynində əks olunması aktiv idraki fəaliyyət prosesində həyata keçir.

Deməli, şəxsiyyətin tam inkişafını təmin etmək məqsədilə inkişafetdirici təlimin təmin olunması vacibdir. İnkişafetdirici təlim öz məqsəd və vəzifələrinə, iştirakçıların (öyrədən və öyrənənlərin) fəaliyyətinin xarakterinə görə ənənəvi təlim texnologiyalardan prinsipial surətdə fərqlənir.

Məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçilər, loqopedlər və uşaqları əhatə edən işçilər peşəkar olmalıdırlar. Onlar uşağın simasında şəxsiyyət, fərdi bir insan görməli, emosional bacarığa malik olmalı, uşaq anatomiyası və psixologiyasını bilməli, uşaqların problemlərini başa düşməli, nitqində, psixi inkişafında pozuntu olan uşaqlarla işləməyi bacarmalıdırlar. Tərbiyəçinin başlıca vəzifəsi idraki fəaliyyəti aktivləşdirməkdir. Bunun müvəffəqiyyətli həlli üçün idraki maraqların inkişafı üçün metodlar, uşaqların fəaliyyət motivlərini formalaşdıran müəyyən şərait yaradılmalıdır ki, fəaliyyət prosesinə maraq inkişaf etsin.

Tərbiyəçinin hazırlıq göstəriciləri müəyyən edilərkən onun pedaqoji qabiliyyəti, pedaqoji mədəniyyəti və peşəkarlığı — uşaqlara məhəbbəti, qayğısı, hörmətlə yanaşması, uşaq psixologiyasını bilməsi, təlimə maraq yaratması, təşkilatçılıq bacarığı, yaradıcılığı, mədəni davranış normalarına malik olması nəzərdə tutulmalıdır.

**Məqalənin aktuallığı.** Hazırda təhsil sisteminin qarşısına qoyulmuş əsas vəzifə təhsilin dünyəvilik, sivillik, ümumbəşəri mövqedən yeniləşdirilməsi və uşaq şəxsiyyətinin formalaşdırılmasıdır. Yeni qurulan təhsildə idraki inkişafın parametrlərini nəzərə almaq, ona imkan və şərait yaratmaq əsas amil hesab edilir. Təhsili bilavasitə inkişafyönlü bir proses kimi stimullaşdırmaq əsas vəzifəyə çevrilir.

**Məqalənin elmi yeniliyi.** İnkişafetdirici təlim şəxsiyyətin bütün keyfiyyətlərinin tam məcmusunun inkişafına istiqamətlənir. İnkişafetdirici təlim öz məqsəd və vəzifələrinə, iştirakçıların (öyrədən və öyrənənlərin) fəaliyyətinin xarakterinə görə ənənəvi təlim

texnologiyalardan prinsipial surətdə fərqlənir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən məktəbəqədər təhsil müəssisələrində çalışan mütəxəssislər faydalana bilər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. “Azərbaycan müəllimi” qəz., 2013, 25 oktyabr.
2. Bayramov Ə., Əlizadə Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1989.
3. Y.Kərimov. Şəxsiyyətin tamlığı. “Elmi əsərlər” jurnalı, 2010, №4. səh.20.
4. F.A.Rüstəmov, T.Y.Dadaşova. Ali məktəb pedaqogikası: Magistratura pilləsi üçün dərslik. Bakı: Nurlan, 2007.
5. Бюлер К. Духовное развитие ребёнка. М., 1924.
6. В.А.Сухомлинский. Сердце отдаю детям. Киев, 1972.

**Ш. Бахышева**

## Роль развивающегося обучения в формирование личности

## Резюме

В настоящее время главной задачей системы образования является образование, цивилизация, глобальные позиции, обновление и формирования личности детей. Детское образование, демократизация и гуманизация являются главными условиями для формирования личности.

Социально-экономические перемены общественной жизни нашей страны внесли соответствующие изменения в систему дошкольного образования, ставшей многофункциональной по своему предназначению. Одним из важных направлений в развитии познавательной деятельности дошкольников выступает создание условий, обеспечивающих полноценное умственное развитие детей, связанное с формированием устойчивых познавательных интересов, умений и навыков мыслительной деятельности, качеств ума, творческой инициативы.

**Sh.A.Bakhishova**

## Development training’s role in the formation of personality

## Summary

At present, the main task of the educational system to the secularization of education, civility, global position, renewal and identity formation of children. Children's education, democratization and humanization is the main conditions for the formation of person.

Social and economic changes of public life of our country have brought respective alterations in system of the preschool education, become multipurpose on the mission. As one of important directions in development of informative activity of preschool children creation of the conditions providing high-grade intellectual development of children, connected with